Cümhuriyət 14-20 iyul.-2023.-S.11

# Zəfər başlanğıcı- Tovuz döyüşləri







Masallıda Tarix-Diyarşünaslıq Muzeyinin, Mərkəzi Kitabxana Sisteminin birgə təşkil etdikləri növbəti tədbir Tovuz döyüşlərinin üçüncü ildönümünə həsr olunub. Muzeydə keçirilən "Zəfər başlanğıcı – Tovuz döyüşləri" adlı "dəyirmi masa"da düşmən təxribatının qarşısını alarkən şəhidlik zirvəsinə ucalmış qəhrəman Vətən oğlu mayor Anar Novruzovun doğmaları, şəhid ailələri, Qarabağ müharibəsi iştirakçıları, ictimaiyyət və media nümayəndələri, eləcə də mədəniyyət işçiləri iştirak ediblər.

**Tədbir respublikamızın , ərazi bütövlüyü uğrunda canını qurban verən qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılmaqla başlanıb.**

Çıxışlarda muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Əntiqə Tağıyeva, "Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr" İctimai Birliyi Masallı rayon təşkilatının sədri Məmmədağa Şiriyev, "Cənub.az" saytının redaktoru Zahir Əmənov, "Respublika" qəzetinin bölgə müxbiri Əlisəfa Həsənov, yazıçı-publisist Nurəddin Ədiloğlu, «Yeni həyat» qəzetinin əməkdaşı Akif Ağayev, "Azərbaycan Bayrağı" ordenli şəhid Sahib Şirəliyevin atası Yusif Şirəliyev, ehtiyatda olan hərbçi Ədalət Hüseynov bildiriblər ki, 2020-ci il iyulun 12-də Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində ölkəmizə qarşı törətdiyi təxribatın qarşısının alınmasında qəhrəmanlıq göstərmiş general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov və Anar Novruzov, digər zabitlərin, əsgərlərin şərəfli, müqəddəs ömür yolu gənclərə, gələcək nəsillərə örnəkdir, həmçinin Tovuz döyüşlərinin hər birimizin Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında daha sıx birləşməsinə möhkəm bir zəmin yaratdı və bu ordu-xalq birliyinin nəticəsi kimi 44 günlük Vətən müharibəsində böyük zəfər qazanıldı.

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli şəhid mayor Anar Novruzovun qardaşı Sucəddin Novruzov, tədbirə videobağlantı vasitəsilə qoşulan, Azərbaycanın Milli Qəhrəmanları – şəhid, general-mayor Polad Həşimovun qardaşı İlham Həşimov, polkovnik İlqar Mirzəyevin qardaşı Rafael Mirzəyev qardaşları ilə qürur duyduğunu, hər zaman şəhid ailələrinə dövlətimiz tərəfindən göstərilən diqqət və qayğını qeyd edərək tədbirin təşkilinə görə əməyi olan hər kəsə öz təşəkkürünü söyləyiblər.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*